# Xoş gördük, Meyxoş Abdulla

## Bir hekayə və bir hekayə fonunda yazdığım məktub

**Oxucularıma üz tutaraq tam səmimi şəkildə demək istəyirəm ki, barəsində yazmağa başladığım müəlliflə şəxsi tanışlığım yoxdur. Ancaq köhnə dildə desək qiyabi, indiki terminlərlə ifadə etsək, sosial şəbəkə vasitəsilə onu çox yaxından tanımışam. Və həyat elə gətirib ki, yaxından tanıdığm bu insanın söz dünyası məni həmişə özünə tərəf çəkibdi. Amma yenə tam səmimi şəkildə etiraf edim ki, bu yazıya qədər onun barəsində bir söz də belə olsa yazmamışam. Amma indi yazmağa məhkumam. Özü də tam səmimi mənada məhkumam. Ona görə ki...**







Oxucular və sosial şəbəkədə olan dostlarım bilir ki, mənim "Bir qadına" silsiləsindən xeyli şeirlərim və esselərim var. Şükürlər olsun ki, bu günlərdə həmin o "Bir qadına" kitab şəklində işıq üzü görüb. Bax elə qələm dostumun mənə göndərdiyi kitabın adındakı "Qadın" sözü özümdən asılı olmadan məni kitaba doğru çəkdi. Və bir də gördüm ki, "Qapısı gecə döyülən qadın..." kitabının ilk vərəqlərini oxuyub bitirmişəm, özü də birnəfəsə. Özümlə etdiyim söhbət kimi. Çünki ruh da, ovqat da, mövzu da, hətta yazı dili də mənə çox doğma idi. İnanın ki, mən artıq ilk vərəqlərdən elə bildim ki, o hadisələrin, o məqamların şahidi və iştirakçısıyam. Ona görə də təkliyin adamı necə üşütdüyünü də. Və bu üşümədən yaşananları da öz canımda təkrarladım. İndi "Üşüyən yarpaqlar..." mənim üçün öz yaşantımın bir kinolenti, bir ekran versiyasıdır. Ondan qurtula bilmirəm. Və qurtula bilmədiyim həmin məqamda intihar üçün evindən çıxan, özü ilə kəndir götürən bir insanın hansı mənəvi və həm də psixoloji həmlələrin hesabına ölümdən vaz keçdiyi anı da yaşayıram. Təsəvvür edin ki, ailəli bir qadın ailəli bir kişini sevir və günlərin birində də həmin ailəli kişi həmin ailəli qadına bir az mədəni şəkildə "həyatımdan çıx, indi başqa birini sevirəm" deyir. Sevgisini itirməmək üçün ölümünü üstün tutan, intihar qərarı verən həmin ailəli qadın son anda məhz həmin ailəli kişinin qanuni həyat yoldaşının həm mərdanə, həm mənəvi zənginlik və həm də həyatı görüb dərk eləmiş, itirməklə barışmış bir ağbirçəyin obrazında intihar hökmünə "yox!" deyir. Bunu, yəni bu detalı tapmaq, tutmaq, onu ədəbiyyata gətirmək, onu hekayələşdirmək heç də asan deyil. Bunun üçün sevməyi də, sevdirməyi də bacarmalısan. O qədər sevməlisən ki, sənin sevdirmək istədiklərin sevginin reallığına, bütövlüyünə, saflığına inansınlar. Bax, indi adını çəkmək istədiyim Meyxoş Abdullah mənə o sevgini həm göstərdi, həm də məni ona inandırdı. Özünütərif kimi çıxmasın, sevginin nə olduğunu bilirəm. Amma Meyxoş Abdullahın bu hekayəsi mənə göstərdi ki, heç də qürrələnmə. Sən hələ sevginin göstəricisi olan dərəcənin ən aşağı mərhələsindəsən. Hələ çox öyrənməlisən, hələ çox sevməlisən.

Mən bu kitabın hər bir hekayəsi və yaxud konkret burada təqdim olunan romanı barısində fikir söyləmək niyyətində deyiləm. Ona görə ki, oxuduğum və hələ də aurasından, caynaqlarından xilas ola bilmədiyim bir neçə hekayə və esse mənə bu kitabın yerini, gərəkliyini sübut etdi. Özü də heç kimin təqdimatı olmadan. Xüsusilə "Baş tutmayan intihar" və bir də "Ay adam, sən kimsən?!" essesi ruhumu da oxşadı, xatirələrimi də. Məhz bu anları mənə yaşatdığına görə, həmkarım, qiyabi dostum Meyxoş Abdullaha oxucu təşəkkürlərimi çatdırır, ona "var olun!" deyib, yeni uğurlar arzu edirəm.

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət 2019.- 17 aprel.- S.8.